**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ELNURƏ BÜNYAT QIZI MƏMMƏDOVA**

# DAYANIQLI İQTİSADİYYATDA AQRAR SAHƏNİN MODERNLƏŞDİRİLMƏSİNDƏ MALİYYƏ MÜNASİBƏTLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

5312.01 – "Sahə iqtisadiyyatı"

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2015**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Maliyyə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: iqtisad üzrə elmlər doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor
**Füzuli Əziz oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Yaqub Feyzulla oğlu Əlifov**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi - Tədqiqat İnstitutu**

Müdafiə 31 oktyabr 2015-ci il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 30 sentyabr 2015-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş**
**dissertasiya şurasının elmi**
**katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKETİRSTİKASI

**Mövzunun aktuallığı.** Beynəlxalq münasibətlər sisteminin qloballaşması hər bir ölkənin milli iqtisadiyyatının rəqabətədavamlılığının yüksəldilməsini tələb edir. Qloballaşma şəraitində rəqabətədavamlı milli iqtisadiyyatın formalaşdırılması ilk növbədə istehsal və xidmət sahələrinin modernləşdirilməsindən bilavasitə asılıdır. Xüsusilə xarici təhdidlərə müvafiq reaksiya göstərilməsi milli iqtisadiyyatın dayaniqlılığı ilə sıx əlaqədardır. Müasir şəraitdə dayanıqlı iqtisadiyyatın formalaşması bir sıra amillərlə, o cümlədən istehsalın modernləşməsi ilə də sıx qarşılıqlı əlaqəyə malikdir.

Milli iqtisadiyyatın elə sahələri mövcuddur ki, həmin sahələr dövlətin strateji maraqlarının qorunmasında mühüm əhəmiyyətə malik olsa da, sahənin azgəlirliliyi və xarici rəqabətin əlverişsiz təzahürlərinə adekvat reaksiya göstərə bilməməsi təsərrüfat fəaliyyətinin səmərəliliyini azaldır. Bu qəbildən olan sahələrə ilk növbədə kənd təsərrüfatı və onunla sıx qarşılıqlı əlaqəyə malik emal sahələrini şamil etmək olar.

Aqrar sahə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynasa da, lakin təbii-iqlim şəraitindən asılılıq, az gəlirlilik və s. istehsalın iqtisadi cəhətdən səmərəli qurulmasına mənfi təsir göstərir. Aqrar sahənin dayanıqlılığının yüksəldilməsi ilk növbədə sahənin modernləşdirilməsindən, yeni texnika və texnologiyaların istehsala cəlb edilməsindən bilavasitə asılıdır.

Dayanıqli iqtisadiyyatda aqrar sahənin modernləşdirillməsi bir sıra amillərdən, o cümlədən maliyyə münasibətlərindən bilavasitə asılıdır. Aqrar əmtəə istehsalçılarının daxili maliyyə imkanları aqrar sahədə istehsalın modernləşdirilməsini təmin etmək iqtidarında deyidir. Aqrar sahənin modernləşdirilməsi ilk növbədə istehsalın intensivləşdirilməsi, torpaqların meliorasiyası və irriqasiyası, eləcə də elit toxum sortlarının rayonlaşdırılması və tətbiqi, aqrar bazar infrastrukturlarının formalaşdırılması və s. sıx əlaqədardır. Təbii ki, adı çəkilənlər aqrar sahənin modernləşdirilməsi ilə bağlı mövcud olan problemlərin yalnız müəyyən hissəsini əhatə edir və bu tip problemlərin səmərəli həlli dövlətin məqsədli maliyyə qoyuluşlarından asılıdır.

Qeyd etmək lazımdır ki, dövlət tərəfindən aqrar sahənin modernləşdirilməsi ilə bağlı silsilə tədbirlər həyata keçirilməkdədir. Belə ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən 3 Dövlət Proqramı, "Aqrar bölmədə lizinqin təkmilləşdirilmasi ilə bağlı əlavə tədbirlər haqqında", "Kənd təsərrüfatı əmtəə istehsalçılarına dövlət dəstəyi haqqinda", "Kənd təsərrüfatında dövlət toxum fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamları aqrar sahənin modernləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.



Aqrar sahənin modernləşdirilməsi maliyyə münasibətlərinin təkmilləşdirilməsi ilə sıx əlaqədardır. Bu baxımdan yerinə yetirilən dissertasiya işi aktual bir problemin həllinə istiqamətlənmişdir.

**Problemin öyrənilmə vəziyyəti.** Aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki, aqrar sahənin modernləşdirilməsi, onun maliyyə problemləri, eləcə də kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi bütün dövrlərdə iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. Ümumiyyətlə, adı çəkilən problemlərin həlli cəmiyyətdə iqtisadi dayanıqlılığın yüksəlməsinə təsir göstərdiyindən, onun ölkənin ərzaq təhlükəsizliyinə bilavasitə təsir göstərdiyini nəzərə alaraq iqtisadçılar və dövlət qurumları davamlı olaraq bu problemin həllinə xüsusi diqqət yetirirlər. İnkişaf etmiş dünya ölkələrində adı çəkilən problemin həlli ilə bağlı dəyişən şəraitə uyğun silsiləli tədbirlər həyata keçirilir və proqramlar qəbul edilir və həmin proqramların müvəffəqiyyətlə icrası nəticəsində dünyanın inkişaf etmiş ölkələri özlərinin ərzaq təhlükəsizliyini təmin etmək istiqamətində müvəffəqiyyətli nəticələrə nail olurlar.

Məhz bütün bunları nəzərə alaraq belə qənaətə gəlmək olar ki, dayanıqlı iqtisadiyyatda aqrar sahənin modernləşdirilməsi və onun maliyyə münasibətlərinin təkmilləşdirilməsi problemi, onun nəzəri-metodoloji və praktik aspektləri bütün hallarda iqtisadi ədəbiyyatlarda daim diqqət mərkəzində saxlanılmışdır. Makroiqtisadiyyatın tədqiqi ilə bağlı respublikamızın aqrar iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, B.X.Ataşov, G.Ə.Gənciyev, İ.H.Alıyev, İ.H.İbrahimov, İ.V.Əhmədov, R.Ə.Balayev, A.F.Abbasov və başqaları adı çəkilən problemin ölkənin ümumi iqtisadi inkişafına təsiri ilə bağlı dəyərli təkliflər və tövsiyələr işləyib hazırlamışlar.

Rus iqtisadçılarından Y.İ. Aqirbov, A.N.Altuxov, İ.N.Buzdalov, V.D.Qonçarov, V.A.Dobrının, S.V.Kiselyov, N.Y.Kovalenko, V.P.Korovkin və başqaları dayanıqlı iqtisadiyyatda aqrar sahənin modernləşdirilməsi və onun maliyyə münasibətlərinin təkmilləşdirilməsinin elmi nəzəri əsaslarını kifayət qədər geniş şəkildə tədqiq etmişlər. Adları çəkilən iqtisadçı alimlərin apardıqları tədqiqatlara hörmətlə yanaşaraq qeyd etmək lazımdır ki, qeyd olunan problemlərlə bağlı dəyərli elmi əsərlər və elmi-tədqiqatlar həyata keçirilsə də, dayanıqlı iqtisadiyyat şəraitində aqrar sahənin maliyyə münasibətlərinin təkmilləşdirilməsi ilə bağlı kompleks və sistemli elmi-tədqiqat işlərinin aparılmasına ehtiyac vardır. Məhz bütün bu aspektlərdən çıxış edərək, dissertasiya mövzusu aktuallıq kəsb edir və bu zəmində elmi-tədqiqatların aparılması obyektiv zərurətdən irəli gəlir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın **məqsədini** dayanıqlı iqtisadiyyatda aqrar sahənin modernləşməsinin maliyyə mexanizminin nəzəri əsaslarını tədqiq etmək, aqrar sahənin maliyyə mexanizminin müasir vəziyyəti və inkişaf meyllərini təhlil etmək və aqrar sahənin modernləşdirilməsinin maliy-

yə mexanizminin təkmilləşdirilməsinin prioritetlərinə dair elmi cəhətdən əsaslandırılmış praktik əhəmiyyətli təkliflərin işlənib hazırlanması təşkil edir.

Dissertasiya işinin məqsədinə müvafiq olaraq aşağıdakı **vəzifələr** müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- dayanıqlı iqtisadiyyatda aqrar sahənin modernləşdirilməsinin zəruriliyi və xarakterik xüsusiyyətlərini araşdırmaq;
- aqrar sahənin modernləşdirilməsində maliyyə münasibətlərinin rolunu müəyyənləşdirmək;
- aqrar sahənin modernləşdirilməsinə və maliyyə dayanıqlılığına təsir edən edən amilləri aşkar etmək;
- dayanıqlı iqtisadiyyatın formalaşdırılmasının mövcud vəziyyətini və modernləşmə şəraitində aqrar sahənin istehsal-təsərrüfat fəaliyyətini təhlil etmək;
- aqrar sahədə maliyyə münasibətlərinin mövcud vəziyyətini qiymətləndirmək;
- qloballaşma şəraitində aqrar sahənin modernləşməsinin prioritetlərini əsaslandırmaq;
- aqrar sahənin modernləşdirilməsində maliyyə-kredit münasibətlərinin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək;
- modernləşmə şəraitində aqrar sahəyə dövlət yardiminin təkmilləşdirilməsinin prioritetlərini işləyib hazırlamaq.

**Tədqiqatın predmetini** dayanıqlı iqtisadiyyatda aqrar sahənin modernləşdirilməsinin maliyyə münasibətlərinin təkmilləşdirilməsi ilə bağlı araşdırmaların aparılması təşkil edir.

**Tədqiqatın obyekti kimi** aqrar sahədə fəaliyyət göstərən müxtəlif mülkiyyət mənsublu təsərrüfat qurumları seçilmişdir.

**Tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti.**

Tədqiqatın elmi yeniliyinə aşağıdakılar şamil edilir:

-dayanıqlı iqtisadiyyat və istehsalın modernləşdirilməsi arasında qarşılıqlı əlaqə müəyyənləşdirilmişdir;

-aqrar sahənin modernləşdirilməsinin zəruriliyi əsaslandırılmış, bu prosesin ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində rolu araşdırılmışdır;

-aqrar sahənin modernləşdirilməsinə təsir edən amillər təsnifləşdirilmişdir;

-aqrar sahənin modernləşdirilməsinə təsir edən iqtisadi və maliyyə dayanıqlılığı amilləri tədqiq edilmişdir;

-aqrar sahədə prioritet istiqamətlər üzrə modernləşmənin işlək mexanizmi işlənib hazırlanmışdır;

-aqrar sahənin modernləşdirilməsində dövlətin aqrar siyasətinin rolu tədqiq edilmişdir;

-aqrar sahənin modernləşdirilməsi ilə bağlı elmi cəhətdən əsaslandırılmış təkliflər irəli sürülmüşdür.



Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə edilmiş və elmi cəhətdən əsaslandırılmış təkliflər, tövsiyələr və praktik nəticələr regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində, aqrar sahənin modernləşdirilməsi ilə bağlı qəbul edilən normativ aktların və proqramların hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın nəzəri əsaslarını bu sahədə fəaliyyət göstərən və tədqiqatlar aparmış iqtisadçı alimlərin elmi əsərləri, eləcə də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, ölkə hökumətinin və Milli Məclisin qəbul etdiyi qanunlar, qərarlar və digər hüquqi-normativ aktlar təşkil edir.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat və Sənaye Nazirliyi nəzdində Sahibkarlara Kömək Milli Fondunun məlumatları, internet resursları təşkil edir.

Tədqiqatın metodu olaraq iqtisadi, statistik təhlil, korelyasiya, reqresiya, analiz və sintez metodlarından istifadə edilmişdir.

**Tədqiqatın sınaqdan keçirilməsi və nəticələrinin istifadə edilməsi.** Dissertasiyanın əsas müddəa, nəticə və təklifləri 2011-2015-ci illərdə Azərbaycan Kooperasiya Universitetində, Azərbaycan Respublikası Təhsil Nazirliyində keçirilmiş beynəlxalq və respublika elmi-praktik konfransların materiallarında, "Dayanıqlı iqtisadiyyatda aqrar sahənin modernləşdirilməsinin bəzi məsələləri (Bakı 2011)", "Экономико-финансовые механизмы устойчивого развития аграрного сектора и модернизация (Гомель 2012)", "Aqrar sahənin modernləşdirilməsinə və maliyyə dayanıqlığına təsir edən amillər (Bakı 2015)" və s. məqalələrdə öz əksini tapmışdır.

Dissertasiya işinin əsas nəticələri və təklifləri Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Füzuli rayon maliyyə şöbəsinə təqdim edilmiş və istifadə üçün qəbul edilmişdir (09 aprel2015-ci il tarixli 43 saylı arayış).

**Dissertasiya işi üzrə dərc olunmuş materiallar.** Dissertasiyanın mövzusuna dair iddiaçının 10 adda ümumi həcmi 4,0 ç.v. olan elmi məqalə və tezisi dərc edilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi**. Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla ümumi həcmi 171 səhifəni əhatə edir. İşdə 15 cədvəl, 2 şəkil, 144 adda ədəbiyyat siyahısı verilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş hissəsində** mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və s. göstərilmişdir.

Disssertasiya işinin **birinci fəsli "**Dayanıqlı iqtisadiyyat və aqrar sahənin modernləşməsinin maliyyə mexanizminin nəzəri əsasları**"** adlanır. Burada əsasən dayanıqlı iqtisadiyyatda aqrar sahənin modernləşdirilməsinin zəruriliyi və xarakterik xüsusiyyətləri araşdırılmış, aqrar sahənin modernləşdirilməsində maliyyə münasibətlərinin rolu müəyyənləşdirilmiş, aqrar sahənin modernləşdirilməsinə və maliyyə dayanıqlılığına təsir edən edən amillər aşkar edilmişdir.

XX əsrin sonlarından etibarən beynəlxalq münasibətlər sistemində güclənən qloballaşma dalğası hər bir ölkənin sosial-iqtisadi həyatına müəyyən dərəcədə təsir göstərir. Hər bir ölkənin milli iqtisadiyyatı artıq klassik iqtisadi sərhədlərdən çıxaraq, demək olar ki, beynəlxalq münasibətlər sisteminə tam mənası ilə inteqrasiya olunmaqdadır. Doğrudur, bu prosesin özünəməxsus müsbət cəhətləri də mövcuddur. İlk növbədə qeyd etmək lazımdır ki, kapitalın, işçi qüvvəsinin, texnologiyaların və əmək ehtiyatlarının sərbəst hərəkəti fonunda, rəqabətədavamlı iqtisadiyyatın formalaşdırılması üçün stimullar yaranır. Onu da nəzərə almaq lazımdır ki, hər bir ölkənin milli iqtisadiyyatı rəqabətədavamlı deyildir və bu baxımdan beynəlxalq bazarda baş verən konyunktur dalğalanmaları ölkələrin milli iqtisadiyyatına da əhəmiyyətli dərəcədə təsir göstərir. Odur ki, qloballaşma şəraitində milli iqtisadiyyatın xarici rəqabətin əlverişsiz təzahürlərinə adekvat reaksiya göstərməsi baxımından dayanıqlı iqtisadiyyatın formalaşdırılması vacib şərtlərdən biridir.

Dayanıqlı iqtisadiyyat ayrı-ayrı sahələrdə inkişaf səviyyəsinin tarazlı şəkildə formalaşdırılmasını tələb edir. Lakin nəzərə almaq lazımdır ki, iqtisadiyyatın elə sahələri mövcuddur ki, həmin sahələr təbii-iqlim şəraitindən asılı olmaqla yanaşı, eyni zamanda hətta ənənəvi iqtisadiyyat şəraitində bazar təsərrüfatçılıq sisteminin ən mühüm elementi olan azad rəqabətin tələblərinə cavab verə bilmir. Bu baxımdan iqtisadiyyatın ən mühüm və strateji sahələrindən olan aqrar sahədə dayanıqlılığın təmin edilməsi vacib şərtlərdən biridir. Aqrar sahədə iqtisadi dayanıqlılığın təmin edilməsi ilk növbədə onun modernləşməsini tələb edir. Məhz modern aqrar sahəyə malik olan hər bir ölkənin iqtisadiyyatı təbii ki, xarici rəqabətin əlverişsiz təzahürlərinə daha güclü şəkildə müqavimət göstərə bilir.

Aqrar sahənin davamlı inkişafına nail olunması ilk növbədə kənd təsərrüfatında məhsul istehsalının intensiv amillərə əsaslanmaqla həyata keçirilməsini, eyni zamanda daxili və xarici bazarın ehtiyaclarının bu amillər hesabına təmin edilməsini tələb edir. Aqrar sahənin davamlı inkişafına nail olunması baxımından bütövlükdə aqrar sahənin iqtisadiyyatının innovasiyalı inkişafa əsaslanmaqla yenidən qurulması vacibdir ki, bu da aqrar istehsalın modernləşdirilməsi prosesinə sistemli yanaşmanı tələb edir. Modernləşmə istehsal prosesinin səmərəli şəkildə təkmilləşdirilməsini təmin etməklə yanaşı, eyni zamanda bu prosesə buraxılan məhsulun, daha doğrusu bazarda əmtəə təklifinin nəinki təkcə yeniləşdirilməsi, eyni zamanda istehsalın texniki və texnoloji baxımdan yenidən qurulmasını, əməyin və idarəetmənin təşkilində yeni istehsal xidmətlərinin tələblərinə uyğun fəaliyyətin həyata keçirilməsini nəzərdə tutur. Bu baxımdan aqrar sahədə fəaliyyət göstərən mülkiyyət mənsubiyyətindən asılı olmayaraq təsərrüfat subyektləri arasında sosial və iqtisadi münasibətlər sisteminin də modernləşmənin tələbləri əsasında qurulması vacib şərtlərdən biridir. Aqrar sahənin istehsalı təşkilati və struktur baxımından modernləşdirilməsinin əsas məzmunu aşağıdakı komponentlərlə bilavasitə bağlıdır:

-müxtəlif təsərrüfat subyektləri səviyyəsində istehsalın optimal şəkildə ixtisaslaşması və yerləşdirilməsi;

-aqrar sahədə bazarın tələblərinə uyğun struktur dəyişikliklərinin həyata keçirilməsi;

-aqrar sahədə istifadə olunan texniki və texnoloji resursların fiziki və mənəvi cəhətdən yeniləşdirilməsi. Nəzərə almaq lazımdır ki, köhnəlmiş texnologiya əsasında əmək məhsuldarlığının yüksəltmək, istehsalın intensivləşdirilməsinə nail olmaq mümkün deyildir. Bu isə ilk növbədə istehsal resurslarının səmərəli istifadə olunmasına mənfi təsir göstərir. Məhz bu aspektdən yanaşdıqda istehsalın fiziki və mənəvi cəhətdən yeniləşdirilməsi, məhsuldar texnologiyaların tətbiq edilməsi hesabına kənd təsərrüfatında təkrar istehsal prosesinin həyata keçirilməsini nəzərdə tutur;

-aqrar sahənin maliyyə və iqtisadi baxımdan modernləşdirilməsi. Bu proses ilk növbədə investisiya resurslarının optimallaşdırılması hesabına kənd təsərrüfatında gəlirlərin, ümumi məhsul istehsalının həcminin artırılmasını və bazarın tələbatına uyğun olaraq məhsul istehsalının həyata keçirilməsi hesabına ilk növbədə daxili bazarın tələbatını təmin etməyə imkan verən məhsul istehsalının həyata keçirilməsini tələb edir. Eyni zamanda, xarici bazara çıxış imkanlarının genişləndirilməsi, xarici rəqabətin əlverişsiz təzahürlərinin vaxtında neytrallaşdırılması da aqrar sahənin maliyyə-iqtisadi baxımından modernləşdirilməsinin vacib şərtlərindən biri hesab edilir.

Aqrar sahənin modernləşdirilməsi, ilk növbədə innovasiyalı məhsul istehsalının həyata keçirilməsini və eləcə də idxalı əvəz edən məhsulların istehsalının həyata keçirilməsini nəzərdə tutur. Nəzərə almaq lazımdır ki, daxili bazarın tələbatının ödənilməsində məhsul istehsalının modernləşdirilməsi, əsas etibarilə istehsalın intensivləşdirilməsinə əsaslanır. Bu zaman isə məhsuldarlığın səviyyəsinin yüksəldilməsi vacib şərtlərdən biri sayılır. Təbii ki, daxili ba-

zarda təklif edilən məhsulların çeşidlərinin genişləndirilməsi hesabına həm yerli əmtəə istehsalçılarının gəlirlərini artırmaq və həm də yerli emal sənayesinin daxili xammala olan tələbatını ödəmək mümkündür.

Yuxarıda qeyd etdiyimiz kimi, adı çəkilən komponentlərin reallaşdırılması aqrar sahənin modernləşdirilməsinin başlıca keyfiyyət xarakteristikası kimi səciyyələnir. Lakin bununla yanaşı, adı çəkilən komponentlərin reallaşdırılması üçün əsas etibarilə kənd təsərrrüfatının istehsal bazasının texniki və texnoloji cəhətdən yenidən qurulması da vacib şərtlərdən biridir. Kənd təsərrrüfatının istehsal bazasının texniki və texnoloji səviyyəsinin aşağı olması son nəticədə geniş təkrar istehsal prosesinin reallaşdırılmasına mənfi təsir göstərir. Belə ki, kənd təsərrüfatında məhsul istehsalının optimal zaman kəsiyində yerinə yetirilməməsi və eləcə də məhsul istehsalı və yığımı zamanı texnikanın çatışmazlığı və digər bu kimi amillər aqrar sahədə itkilərin yaranmasına gətirib çıxarır. Eyni zamanda, onu da nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı iqtisadiyyatın elə bir sahəsini təşkil edir ki, bu sahədə torpaq resursları əsas istehsal vasitəsi kimi çıxış edir. Torpaq resurslarının əsas istehsal vasitəsi kimi çıxış etməsi, onun münbitliyinin mühüm rol oynaması və eləcə də torpaq sahələrinin məhdud xarakter daşıması məhz torpaq resurslarından son dərəcə səmərəli istifadə edilməsini tələb edir. Lakin nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında faktiki və potensial məhsuldarlıq arasında kəskin fərqlərin yaradılması istehsalın intensivləşdirilməsinə mənfi təsir göstərir və ekstensiv amillərin hələ də bu sahədə üstünlük təşkil etməsinə səbəb olur. Məsələn, təkcə bir faktı qeyd etmək lazımdır ki, respublikamızda kənd təsərrüfatının ən mühüm sahələrindən biri olan və ölkənin ərzaq təhlükəsizliyində əhəmiyyətli rol oynayan taxılçılıqda məhsuldarlığın səviyyəsi 1990-cı ildən hal-hazıradək demək olar ki, 27 sent/hektarı keçməmişdir. Bu isə kənd təsərrüfatında torpaq resurslarının daha çox taxılçılıq altında becərilməsinə gətirib çıxarır və digər sahələrdə məhsul istehsalının səmərəli yerləşdirilməsi üçün zəmin yaratmır. Bundan əlavə, aqrar sahəyə investisiya qoyuluşlarının həcminin aşağı olması da kənd təsərrüfatında səmərəli geniş təkrar istehsalın reallaşdırılmasına imkan vermir. Kənd təsərrüfatına qoyulan investisiya resursları əsas etibarilə maddi-texniki resursların alınmasına yönəldilmiş və Aqrolizinq ASC vasitəsi ilə kənd təsərrüfatında bir sıra texniki və texnoloji irəliləyişlərə nail olunmuşdur. Bununla belə adı çəkilən proseslər kənd təsərrüfatında modernləşdirmənin tələbləri baxımından kifayət deyildir.

Aqrar sahənin modernləşdirməsində maliyyə münasibətlərinin rolu ilk növbədə onunla bağlıdır ki, kənd təsərrüfatı istehsalının maddi-texniki resurslar bazasının ən mühüm və sistemli elementlərindən biri maliyyə resursları hesab edilir. Maliyyə resursları iqtisadi resursların məcmu tərkib hissələrindən birini



təşkil etməklə yanaşı, eyni zamanda təsərrüfat subyektinin iqtisadi resurslarının mövcud vəziyyətindən də asılı olur.

Təcrübədə bir qayda olaraq istehsal amillərinin müxtəlif növ kombinasiyalarına rast gəlinir ki, bu kombinasiyalar da son nəticədə istehsal potensialının yüksəldilməsinə istiqamətlənir. Bütün hallarda istehsal amillərinin müxtəlif aspektlərdə kombinasiyası həyata keçirilsə də, bu və ya digər resursların qıtlığı hiss olunur ki, bu da son nəticədə ümumi inkişafa mənfi təsir göstərir. Respublikamızda fəaliyyət göstərən özəl kənd təsərrüfatı müəssisələrinin mövcud təcrübəsindən çıxış etsək belə qənaətə gəlmək olar ki, hal-hazırda kənd təsərrüfatı əmtəə istehsalçılarının resurs bazasının mövcud vəziyyətində bu və ya digər elementlərin kəsirlərinə rast gəlmək mümkündür. Sadə resursların hər hansı birində yaranan məhdudiyyətlər, son nəticədə kənd təsərrüfatında aqrotexniki tədbirlərin optimal zaman kəsiyində yerinə yetirilməsində də problemlərin yaranmasına gətirib çıxarır.

Aparılan araşdırmalar göstərir ki, müasir şəraitdə aqrar sahənin modernləşdirməsinə mənfi təsir göstərən ən mühüm amillərdən biri kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə resurslarına olan ehtiyaclarının tam şəkildə ödənilməməsidir. Kənd təsərrüfatı əmtəə istehsalçıları bu və ya digər şəkildə kapital qıtlığı ilə rastlaşırlar. Əslində, kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə resursları ilə kifayət qədər məhdud şəkildə təmin olunmasının özünəməxsus səbəbləri də mövcuddur. Bütün bunlar bu və ya digər şəkildə obyektiv səbəblərdən irəli gəlir. Belə ki, kənd təsərrüfatı əmtəə istehsalçıları sənaye müəssisələri ilə müqayisədə demək olar ki, az gəlirli fəaliyyət imkanlarına malikdir. Bundan əlavə, kənd təsərrüfatı əmtəə istehsalçılarının torpaq-iqlim şəraitindən asılılığı son nəticədə təsərrüfat fəaliyyətinin rentabelliyinə və bütövlükdə məhsul satışından əldə edilən mənfəətin həcminə mənfi təsir göstərir. Təhlil göstərir ki, kənd təsərrüfatı məhsullarının satış qiymətlərinin sənaye məhsullarının satış qiymətləri ilə müqayisədə kəskin şəkildə aşağı olması kənd təsərrüfatında məhsul satışından əldə olunan pul gəlirlərinin həcminin azalmasına da səbəb olur. Məhz bütün bunların nəticəsidir ki, kənd təsərrüfatında məhsul istehsalının həcmi sənayedə istehsal olunan məhsulun həcmi ilə müqayisədə kifayət qədər aşağı olur və bu da son nəticədə kənd təsərrüfatında geniş təkrar istehsal prosesinin sürətini ləngidir. Ümumiyyətlə, kənd təsərrüfatında resursların sürətli dövriyyəsi imkanları məhduddur və bu sahənin özünəməxsus xüsusiyyətlərindən irəli gəlir.

"Dayaniqli iqtisadiyyatda aqrar sahənin maliyyə mexanizminin müasir vəziyyəti və inkişaf meylləri" adlanan **ikinci fəsildə** dayanıqlı iqtisadiyyatın formalaşdirilmasinin mövcud vəziyyəti, modernləşmə şəraitində aqrar sahənin istehsal-təsərrüfat fəaliyyəti, aqrar sahədə maliyyə münasibətlərinin mövcud durumu təhlil edilmişdir.

Dayanıqlı iqtisadiyyat anlayışına əslində məqsəd kimi deyil, proses kimi yanaşılmalıdır. Daha doğrusu, dayanıqlı iqtisadiyyatın formalaşdırılmasında ən başlıca məqsəd iqtisadi təhlükəsizliyin qorunub saxlanılması, eləcə də xarici təhdidlərin zərərsizləşdirilməsi ilə bağlıdır. İqtisadiyyatın dayanıqlılığının yüksəldilməsinin sosial məqsədləri də mövcuddur. Bu məqsədlərə ilk növbədə ölkədə yoxsulluğun səviyyəsinin azaldılması və vətəndaşların yaşayış durumunun yaxşılaşdırılması ilə bağlı zəruri tədbirlərin gerçəkləşdirilməsini və bu sahədə nailiyyətlərin əldə edilməsini şamil etmək olar. İqtisadiyyatın dayanıqlı olması və bütövlükdə iqtisadiyyatın bütün sahələrində fasiləsiz olaraq dayanıqlı inkişafa nail olunması bu inkişafın faydalarının bütün insanları əhatə etməsinə gətirib çıxara bilər.

Modernləşmə şəraitində dayanıqlı iqtisadiyyatın formalaşdırılması iqtisadiyyatın bütün sahələrini və spektrlərini əhatə etməlidir. Bu proses həm istehsal, həm də xidmət sahələrini əhatə etməklə yanaşı, ölkənin beynəlxalq münasibətlər sisteminə, eləcə də beynəlxalq əmək bölgüsünə daha dərin inteqrasiyasının reallaşdırılmasında əhəmiyyətli vasitə hesab olmalıdır. Dayanıqlı iqtisadiyyatın formalaşdırılması istehsal sektoru ilə bağlı, daha doğrusu iqtisadiyyatın real sektoru ilə yanaşı, eyni zamanda infrastrukturun inkişafında da davam etdirilməli, səhiyyə, təhsil, su təchizatı, kanalizasiya xidmətləri kimi sahələrə əhalinin bütün təbəqələrinin çıxış imkanlarının yaxşılaşdırılmasını nəzərdə tutmalıdır. Dayanıqlı iqtisadiyyat eləcə də ətraf mühitin təmizlənməsinə dəstək, eləcə də iqtisadiyyatda biznes mühitinin yaxşılaşdırılmasına əlverişli şərait yaradılması kimi prioritet sahələri də əhatə etməlidir.

Aparılan araşdırmalar göstərir ki, hal-hazırda ölkəmizdə iqtisadiyyatın dayanıqlılığının yüksəldilməsi istiqamətində xeyli irəliləyişlərin əldə edilməsinə baxmayaraq bir sıra problemlər də mövcuddur və bunların bəziləri obyektiv şəraitdən və ölkənin beynəlxalq əmək bölgüsündəki yerindən və rolundan da bilavasitə asılıdır. İqtisadiyyatın ixtisaslaşması, eləcə də təbii resurslar və digər bu kimi amillər iqtisadiyyatın dayanıqlılığının təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Doğrudur, təbii resurslarla bu sahədə zənginlik iqtisadiyyatın dayanıqlılığının təmin edilməsində əhəmiyyətli vasitə hesab edilir. Lakin onu da nəzərə almaq lazımdır ki, bir sıra hallarda təbii resurslarla zənginlik, o cümlədən həmin neft faktoru təsirinin daha güclü olması daha çox iqtisadiyyatın neft gəlirlərindən asılı olmasına gətirib çıxarır. Odur ki, iqtisadiyyatın dayanıqlılığının təmin edilməsi məqsədilə respublikamızda infrastruktur və insan kapitalı kimi aktivlərin diversifikasiyasının inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir. Ölkəmizin dayanıqlı iqtisadiyyatın formalaşdırılmasında başlıca məqsəd həm də neft və qaz gəlirlərindən asılılığın azaldılması və eləcə də əmtəə qiymətlərinin çevikliyinə yönəldilmiş fəaliyyətinin həyata keçirilməsinə nail olmaqdan ibarətdir. Ümumiyyətlə, neft və qaz gəlirlərindən asılılığın azaldılması dayanıqlı iqtisadiyyatın formalaşdırılmasında və iqtisadi aktivliyin diversifikasiyasında başlıca vasitə hesab edilir. İqtisadi aktivliyin diversifikasiyası, ilk növbədə iqtisadi inkişafın çoxşaxəli xarakter daşımasını nəzərdə tutur ki, bu da konkret sahə üzrə dünya bazarında baş verən tərəddüdlərin bütövlükdə ölkə iqtisadiyyatına təsirinin digər sahələr hesabına neytrallaşdırılması ilə səciyyələnir. Respublikamızda neft və qaz gəlirlərindən asılılıq ilə bağlı müəyyən problemlər mövcuddur və bu problemlər onunla bağlıdır ki, ölkədə ixracın strukturunda neft məhsulları əhəmiyyətli rol oynayır və bu isə o deməkdir ki, təbii olaraq ixracdan əldə edilən gəlirlər daha çox neft və qaz gəlirləri hesabına formalaşır. Beləliklə, iqtisadiyyatın dayanıqlılığını təmin etmək məqsədilə əslində neft və qaz gəlirlərindən asılılığın tamamilə endirilməsi və digər sahələrdən əldə edilən ixrac gəlirlərinin səviyyəsinin yüksəldilməsinə nail olmaq mühüm vəzifələrdən biri hesab edilir. Azərbaycan Respublikasında infrastrukturun müasir tələblərə uyğunlaşdırılması ilə bağlı zəruri tədbirlər görülür və bundan sonra da həyata keçirilməlidir. Məhz infrastrukturun müasirləşdirilməsi hesabına iqtisadiyyatın modernləşdirilməsinə nail olmaq, yeni texnologiyaların və eləcə də yeni investisiyaların cəlb edilməsinə nail olmaq mümkündür.

Aparılan araşdırmalar göstərir ki, neftin qiymətinin sürətlə aşağı düşdüyü şəraitdə, xüsusilə neft ixrac edən ölkələr, yəni iqtisadiyyatı neftdən asılı olan ölkələr daha çox problemlə üzləşirlər. Bu isə onunla bağlıdır ki, neftin qiymətində baş verən konyunktur dalğalanmaları həmin ölkələrin dövlət büdcəsində vəsait daxilolma imkanlarını məhdudlaşdırır. Belə bir şəraitdə dövlət büdcəsinin gəlirlərinin həcminin azalması, eləcə də infrastruktur layihələrinə yönəldilən vəsaitlərin məhdudlaşdırılması prosesi baş verir. Prosesi mürəkkəbləşdirən məqamlardan biri də ondan ibarətdir ki, xüsusilə ölkələrin idxaldan asılılığının yüksəldiyi şəraitdə və eyni zamanda ixracın strukturunda əhəmiyyətli xüsusi çəkisini təxminən 85-95% nisbətlərində xüsusi çəkinin neft sektoru ilə bağlı olması bütövlükdə dövlət büdcəsinin manevr imkanlarını məhdudlaşdırır və eləcə də aqrar sənaye məhsullarının, yəni ölkə əhalisinin istifadə etdiyi və hər gün istifadəsində olan qida məhsullarının əksəriyyətinin xaricdən alındığı şəraitdə ölkələr kifayət qədər problemlərlə üzləşirlər. Bütün bunlar aqrar sahənin əhəmiyyətini, aqrar sahənin rolunu bir daha ön plana çəkir.

Məhz bütün bunları nəzərə alaraq belə qənaətə gəlmək olar ki, inkişaf etmiş ölkələrin də praktikasından göründüyü kimi, hər bir ölkədə ərzaq təminatının yaxşılaşdırılması, ölkənin aqrar sahəsinin modernləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilir. Bu tədbirlərin əhəmiyyəti, ilk növbədə onunla bağlıdır ki, hər bir ölkə özünün milli ərzaq təhlükəsizliyini təmin etmək, ölkə əhalisini yerli ərzaq məhsulları ilə təmin etmək üçün zəruri tədbirlər həyata keçirmək məcburiyyətindədir. Bu, ilk növbədə milli təhlükəsizliyin tə-

min olunması, ölkənin iqtisadi suverenliyinin qorunub saxlanılması və kəndin sosial həyatının, sosial inkişafının gücləndirilməsi zərurətindən irəli gəlir.

Aqrar sahənin inkişafı, onun maliyyə-təsərrüfat fəaliyyəti nəinki kənd əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılması, mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin artırılması, kəndlə şəhər əhalisi arasında yaşayış və gəlir fərqinin uyğunlaşdırılması prosesi ilə bərabər, eyni zamanda ölkədə iqtisadi sabitliyin, sosial dayanıqlığın qorunub saxlanılması ilə də sıx əlaqədardır. Belə bir şəraitdə Azərbaycanda əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi ilk növbədə aqrar sahənin inkişafından, onun təsərrüfat-maliyyə fəaliyyətinin mövcud durumundan, kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin artırılmasından və kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi cəhətdən səmərəli qurulmasından bilavasitə asılıdır.

1995-2013-cü illərdə birkiçilik məhsullarının istehsalında artım meylləri müşahidə edilmişdir. Müqayisə olunan dövrdə dənli və dənli paxlalılar istehsalı 3,2 dəfə, kartof istehsalı 6,4 dəfə, tərəvəz istehsali 2,9 dəfə, bostan məhsulları istehsali 10,3 dəfə, meyvə və giləmeyvə istehsalı 2,6 dəfə artmışdır. Müqayisə olunan dövrdə pambıq istehsalı 84%, tütün istehsalı 70%, üzüm istehsali 50%, çay istehsalı isə 94% azalmışdır. Bir sira məhsul növlərinin istehsalı üzrə 1995-ci il səviyyəsindən əhəmiyyətli dərəcədə geriqalma, xüsusilə gəlirli sahələrin inkişaf səviyyəsinin aşağı düşməsinə gətirib çıxarmışdır. Belə ki, toxuculuq və yüngül sənayenin xammal bazası olan pambıqçılıqda 2013-cü ildə 45,2 min ton məhsul istehsalı 1990-cı illərdə bir rayonun göstəricisindən belə aşağıdır. Tütün və siqaret istehsalının xammal bazasını təşkil edən tütünçülükdə məhsul istehsalının 1995-ği illlə müqayisədə 2013-cü ildə 70% azalması emal sənayesinin xaricdən gətirilən xammal bazası əsasında fəaliyyət göstərdiyini və tələbatın daha çox idxal kanalları hesabına ödənildiyini göstərir. Oxşar situasiya üzümçülük və çayçılıqda da ozünü biruzə verməkdədir. Adı çəkilən sahələrin öz əvvəlki şöhrətinin qaytarılması qeyri-neft sektorunun inkişafında əhəmiyyətli vasitə olmaqla alternativ ixrac sektorunun inkişafına da əhəmiyyətli şərait yarada bilər. Qeyd etmək lazımdır ki, 2013-cü ildə ölkə üzrə dənli və dənli paxlalılar istehsali 2955,3 min ton, pambıq istehsalı 45,2 min ton, tütün istehsalı 3,5 min ton, kartof istehsalı 992,8 min ton, tərəvəz istehsali 1236,3 min ton, bostan məhsulları istehsali 429,8 min ton, meyvə və giləmeyvə istehsalı 853,8 min ton, üzüm istehsali 154,1 min ton, çay istehsalı 0,57 min ton təşkil etmişdir.

Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində bitkiçilik məhsullarının istehsalı ilə yanaşı heyvandarlıq məhsulları istehsalı da mühüm rol oynayır.



1995-2013-cü illərdə ət istehsalı 2,7 dəfə, süd istehsalı 2,2 dəfə, yumurta istehsalı 3,1 dəfə, yun istehsalı 87%, bal istehsalı isə 8,3 dəfə artmışdır. 2013-cü ildə ət istehsalı 297,9 min ton, süd istehsali 1820,5 min ton, yumurta istehsalı 1401,5 mln ədəd, yun istehsalı 16,8 min ton, bal istehsalı isə 2,5 min ton təşkil etmişdir.

Kənd təsərrüfatı istehsalının modernləşməsində istehsalın intensivləşdirilməsi, o cümlədən kənd təsərrüfatının texnika ilə təminatı mühüm rol oynayır. Bu baximdan kənd təsərrüfatının texnika ilə təminatının dinamikası cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1

Kənd təsərrüfatının texnika ilə təminatı

| Göstəricilər | 1995 | 1999 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 1995-ci ilə nisbətən 2013-cü ildə |
|---|---|---|---|---|---|---|---|---|
| 1000 ha əkinə traktor düşür, ədəd | 21,3 | 16,8 | 11,9 | 13,4 | 13,3 | 12,8 | 13,9 | 65 |
| Bir traktora düşən əkin, ha | 47 | 60 | 84 | 75 | 75 | 78 | 72 | 153 |
| **Müvafiq bitkilərin min hektar əkin sahəsinə kombayn (maşın) düşür, ədəd** | | | | | | | | |
| Taxilyığan | 7,1 | 7,4 | 1,8 | 2,1 | 1,9 | 1,7 | 2,1 | 30 |
| Qarğıdalıyığan | 22,8 | 5,5 | 1,6 | 0,2 | 0,1 | 0,1 | 0,2 | 1 |
| Kartofyığan | 0,8 | 3,8 | 0,2 | 0,3 | 0,3 | 0,3 | 0,6 | 75 |
| Çuğunduryığan | 3,7 | 5,0 | 5,2 | 1,1 | 1,2 | 2,5 | 1,8 | 49 |
| Pambıqyığan | 12,6 | 18,6 | 0,2 | … | 0,9 | 1,4 | 2,2 | 17 |
| **Bir kombayna (maşına) düşən müvafiq bitki əkinləri, ha** | | | | | | | | |
| Taxilyığan | 140 | 135 | 544 | 487 | 526 | 578 | 483 | 3.5 dəfə |
| Qarğıdalıyığan | 44 | 180 | 622 | 5978 | 8409 | 11884 | 5521 | 12.5 dəfə |
| Kartofyığan | 1227 | 263 | 6427 | 3290 | 3104 | 3667 | 1814 | 148 |
| Çuğunduryığan | 270 | 200 | 197 | 944 | 811 | 402 | 547 | 2.03 dəfə |
| Pambıqyığan | 79 | 54 | 5122 | … | 1127 | 713 | 451 | 5.8 dəfə |
| **100 traktora düşür, ədəd** | | | | | | | | |
| Kotan | 26 | 22 | 20 | 16 | 16 | 16 | 23 | 88 |
| Kultivator | 14 | 14 | 7 | 4 | 4 | 4 | 3 | 21 |
| Toxumsəpən | 20 | 17 | 9 | 9 | 9 | 9 | 9 | 45 |
| Ot biçən | 6 | 4 | 7 | 4 | 4 | 4 | 6 | 100 |

Cədvəldən göründüyü kimi, 1995-2013-cü illərdə 1000 ha əkin sahəsinə düşən traktorun sayı 21,3 ədəddən 13,9 ədədə qədər, başqa sözlə 35% azalmış, müvafiq olaraq 1 traktora duşən əkin sahəsinin həcmi 47 hektardan 72 hektara qədər, başqa sözlə 53% artmışdır. Bu isə onu göstərir ki, hal hazırda kənd təsərrüfatında traktor çatışmazlığı müşahidə edilir. Əgər 1995-ci ildə müvafiq itkilərin hər 1000 hektarına 7,1 ədəd taxılyığan kombayn, 22,8 ədəd qarğıdalıyığan kombayn, 0,8 ədəd kartofyığan kombayn, 3,7 ədəd çuğunduryığan kombayn, 12,6 ədəd pambıqyığan kombayn düşürdüsə, 2013-cü ildə bu göstərici-

lər müvafiq olaraq 2,1; 0,2; 0,6; 1,8; 2,2 ədəd təşkil etmişdir. Müvafiq əkinlərin hər 1000 hektarına düşən kombaynların sayının azalması müvafiq olaraq bir kombayna düşən müvafiq bitkilərin də əkin sahəsinin də artmasına gətirib çıxarmışdır. Belə ki, əgər 1995-ci ildə bir taxılyığan kombayna 140 hektar, bir qarğidalıyığan kombayna 44 hektar, kartofyığan kombayna 1227 hektar, bir çuğunduryığan kombayna 270 hektar, bir pambıqyığan kombayna 79 hektar əkin sahəsi düşürdüsə, 2013-cü ildə bu göstərici müvafiq olaraq 483; 5521; 1814; 547; 451 hektar təşkil etmişdir.

1995-ci ildə hər 100 traktora 26 kotan, 14 kultivator, 20 toxumsəpən, 6 otbiçən düşürdüsə 2013-cü ildə bu göstərici müvafiq olaraq 23; 3; 9; 6 ədəd təşkil etmişdir. Cədvəlin təhlilindən belə qənaətə gəlmək olar ki, müqayisə olunan dövrdə hər 1000 ha əkin sahəsinə düşən traktorun sayı 35%, müvafiq bitkilərin hər min hektarına düşən taxılyığan kombaynların sayı 70%, qarğıdalıyığan kombaynların sayı 99%, kartofyığan kombaynların sayı 25%, çuğunduryığan kombaynların sayı 51%, pambıqyığan kombaynların sayı isə 83% azalmışdır. Müqayisə olunan dövrdə hər 100 traktora düşən kotanların sayı 12%, kultivatorların sayı 79%, toxumsəpənlərin sayı 55% azalmışdir. Beləliklə, cədvəlin təhlilindən göründüyü kimi, kənd təsərrüfatı istehsalının intensivləşdirilməsini xarakterizə edən göstəricilərdən biri kimi kənd təsərrüfatının texniki təminat səviyyəsi 1995-ci ilin səviyyəsində belə deyil.

Aparılan araşdırmalar göstərir ki, 2007-ci ildən etibarən ölkəmizdə hər il təxminən 600 mindən çox kənd təsərrüfatı əmtəə istehsalçısı dövlət qayğısından faydalanmışdır. Son 1 ildə kənd təsərrüfatı məhsulları istehsalçıları lizinqə verilmiş texnikalar əvvəlki illə müqayisədə 37 faiz artmışdır. Bundan əlavə, kənd təsərrüfatında istifadə edilən texniki resursların demək olar ki, əksəriyyəti Avropa ölkələrindən alınmış və kifayət qədər modern xarakter daşıyır.

2007-ci ildən etibarən respublikamızda fəaliyyət göstərən əmtəə istehsalçıları texnikanı əvvəlki ilə nisbətən 50%, gübrəni isə 30% aşağı qiymətə əldə edirlər. Təbii ki, bütün bunlar kənd təsərrüfatında məhsul istehsalının artırılmasına və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin mühüm tərkib hissəsi kimi dəyərləndirilə bilər. Bu tədbirlər, eyni zamanda kənd təsərrüfatında məhsulun dəyərinin aşağı salınmasına əlverişli şərait yaradır. Məlum olduğu kimi, kənd təsərrüfatında məhsulun maya dəyəri müxtəlif tərkib elementlərindən və xərc ünsürlərindən ibarətdir. Bu xərc ünsürlərinin tərkibində təbii ki, mineral gübrələrin alınmasına sərf edilən vəsaitlər, texniki resursların əldə olunmasına sərf olunan vəsaitlər də xüsusi çəkiyə malikdir. Eyni zamanda, kənd təsərrüfatı əmtəə istehsalçılarının toxum materialları və tinglərlə təmin olunması da xərc ünsürlərinin mühüm tərkibin hissəsini təşkil edir. Beləliklə, əslində kənd təsərrüfatına göstərilən dövlət qayğısı ilk növbədə məhsulun maya dəyərinin aşağı salınmasına yönəldilir ki, bu



da qiymətlərin səviyyəsinin sabitləşdirilməsində, ərzaq bazarında istehlakçıların əlçatan qiymətə məhsul əldə etmələrinə əlverişli şərait yaradır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının 2007-2012-ci illərdə dövlət büdcəsinin vəsaiti hesabına edilən yardımlar barədə məlumat cədvəl 2-də öz əksini tapmışdır.

Cədvəl 2

Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına edilən yardımlar, milyon manat

| İllər | Yanacaq və motor yağlarına görə | Buğda və çəltik səpininə görə | Mineral gübrələrə görə | I və II reproduksiyalı toxumalara görə | Elmi-Tədqiqat təşkilatlarına orijinal, superelit və elit toxumalara çəkilən xərclərin ödənilməsinə görə | Cəmi |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 2007 | 42.2 | 20.2 | 2.4 | 0.9 | 0.61 | 66.3 |
| 2008 | 53.8 | 29.7 | 6.7 | 3.8 | 0.7 | 94.7 |
| 2009 | 59.8 | 22.9 | 6.5 | 4.6 | 0.93 | 94.73 |
| 2010 | 55.5 | 23.4 | 24.5 | 6.0 | 0.93 | 110.33 |
| 2011 | 52.8 | 25.2 | 12.1 | 5.8 | 0.93 | 96.83 |
| 2012 | 56.7 | - | 17.1 | - | - | 73.8 |
| Cəmi 5 ildə | 264.1 | 121.4 | 52.2 | 21.1 | 4.1 | 462.9 |

Cədvəldən göründüyü kimi, 2012-ci ildə kənd təsərrüfatı əmtəə istehsalçılarına yanacaq və motor yağlarına görə 56,7 milyon manat, mineral gübrələrə görə 17,1 milyon, cəmi bütövlükdə isə 73,8 milyon manat yardım verilmişdir. Bütövlükdə 2007-2012-ci illərdə kənd təsərrüaftı əmtəə istehsalçılarına 462,9 milyon manat məbləğində yardım göstərilmişdir. 2011-ci ildə yanacaq və motor yağlarına görə kənd təsərrüfatı əmtəə istehsalçılarına 52,8 milyon manat, buğda və çəltik səpininə görə 25,2 milyon manat, mineral gübrələrə görə 12,1 milyon manat, I və II reproduksiyalı toxumlara görə 5,8 milyon manat, elmi-tədqiqat təşkilatlarına orijinal super elit və elit toxumlara çəkilən xərclərin ödənilməsinə görə isə 930 min manat məbləğində yardım göstərilmişdir.

Cədvəldən göründüyü kimi, kənd təsərrüfatı əmtəə istehsalçılarının dövlət büdcəsinin vəsaiti hesabına ödənilən yardımların strukturunda ən yüksək xüsusi çəkini yanacaq və motor yağlarına görə ödənilən yardımlar təşkil edir. Fikrimizcə, dövlət büdcəsindən ödənilən yardımların əsas meyarını əkin sahəsi təşkil etdiyindən bir sıra hallarda kənd təsərrüfatı əmtəə istehsalçıları əkin sahələrinin artırılmasına maraqlı olurlar. Ona görə də kənd təsərrüfatına dövlət büdcəsindən ayrılan yardımların ödənilməsində məhsuldarlıq səviyyəsinin başlıca kriteriya kimi göstərilməsinə daha çox ehtiyac vardır. Məhz

belə halda kənd təsərrüfatında istehsalın intensivləşdirilməsinə nail olmaq və eyni zamanda məhsulun rəqabərədavamlılığını yüksəltmək mümkün olar.

Yuxarıda qeyd etdiyimiz kimi, aqrar sahədə maliyyə münasibətlərinin mühüm tərkib hissəsini kredit resurslarına olan tələbatın ödənilməsi təşkil edir. Qeyd etmək lazımdır ki, respublikamızda Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına kənd təsərrüfatında fəaliyyət göstərən özəl təsərrüfat subyektlərinə güzəştli şərtlərlə kreditlərin verilməsi həyata keçirilir. Təkcə bir faktı qeyd etmək lazımdır ki, 2014-cü ildə Azərbaycan Respublikasının 19 rayonunda 40 quşçuluq təsərrüfatına, 13 rayonunda 20 heyvandarlıq təsərrüfatına, 8 rayonunda südçülük kompleksinə, 6 rayonda ət kəsimi və emal müəssisəsinə, 240 mln manat həcmində güzəştli kredit Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına verilmişdir.

Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2013-cü ildə iqtisadiyyatın sahələri üzrə verilən kreditlər haqqında məlumat cədvəl 3-də öz əksini tapmışdır.

Cədvəl 3

Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2013-cü ildə iqtisadiyyatın sahələri üzrə verilən kreditlər, min manatla

| s/s | İqtisadiyyatın sahələri | Layihələrin sayı | Xüsusi çəkisi (%) | Kreditin məbləği | Xüsusi çəkisi (%) | Yaradılacaq yeni iş yerlərinin sayı (nəfər) |
|---|---|---|---|---|---|---|
| 1 | Müxtəlif sənaye məhsullarının istehsalı və emalı | 175 | 3.9 | 85325.0 | 31.0 | 2496 |
| 2 | Kənd təsərrüfatı məhsullarının istehsalı | 4276 | 95.7 | 149511.0 | 54.4 | 8947 |
| 3 | Kənd təsərrüfatı məhsullarının emalı | 10 | 0.2 | 32679.0 | 11.9 | 461 |
| 4 | Xidmət sahələrinin inkişafı | 7 | 0.2 | 7485.0 | 2.7 | 141 |
| | **Cəmi:** | **4468** | **100.0** | **275000.0** | **100.0** | **12045** |

Cədvəldən göründüyü kimi, 2013-cü ildə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 275 milyon manat məbləğində kredit verilmişdir ki, bu kreditin də 85,3 milyon manatını müxtəlif sənaye məhsullarının istehsalı və emalı ilə məşğul olan müəssisələrin yaradılmasına və inkişaf etdirilməsinə, 149,5 milyon manatını isə kənd təsərrüfatı müəssisələrinin istehsalı bölməsinə, 32,6 milyon manatını kənd təsərrüfatı məhsullarının emalı sektoruna, 7,4 milyonunu isə xidmət sahələrinin inkişaf etdirilməsinə istiqamətlənmiş layihələrin kreditləşdirilməsi təşkil etmişdir. Cədvəldən göründüyü kimi, Sahibkarlığa Kömək Milli Fondunun kreditləşdirmə sistemində ən yüksək xüsusi çəkini, yəni 54,4% payı kənd təsərrüfatı məhsullarının istehsalının kreditləşdirilməsi



təşkil edir. Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına kreditləşdirmənin həyata keçirilməsi zamanı, bütövlükdə sənaye müəssisələrinə verilən kreditlərlə əlaqədar 2496 nəfərlik yeni iş yerinin yaradılması, eləcə də kənd təsərrüfatı məhsullarının istehsal sektorunda 8947 nəfər yeni iş yerinin yaradılması, kənd təsərrüfatı məhsullarının emalı sektorunda 461 nəfərlik yeni iş yerinin yaradılması, xidmət sahələrinin inkişafı sektoruna kreditlərin verilməsi ilə əlaqədar isə 141 yeni iş yerinin yaradılması təmin edilmişdir.

"Aqrar sahənin modernləşdirilməsinin maliyyə mexanizminin təkmilləşdirilməsinin prioritetləri" adlanan **üçüncü fəsildə** aqrar sahənin modernləşdirilməsində maliyyə-kredit münasibətlərinin təkmilləşdirilməsi istiqamətləri və modernləşmə şəraitində aqrar sahəyə dövlət yardımının əsas prioritetləri müəyyənləşdirilmişdir.

İqtisadiyyatın ən mühüm və strateji əhəmiyyətli sahələrindən olan kənd təsərrüfatında mənfi halların aradan qaldırılması və neytrallaşdırılması istiqamətində həyata keçirilən kompensasiya tədbirləri son nəticədə kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin və çoxşaxəliliyin formalaşdırılmasında mühüm istiqamətlərdən birini təşkil edir. Müasir şəraitdə aqrar sahənin inkişaf strategiyasında modernləşdirmə xətti xüsusi rola malikdir. Aqrar sahənin modernləşdirilməsi, kənd təsərrüfatı əmtəə istehsalçılarının rəqabətə dayanıqlılığının yüksəldilməsini tələb edir. Əslində, qloballaşma şəraitində rəqabətədayanıqlılığın yüksəldilməsi aqrar sahənin modenləşdirilməsinin ən mühüm prioritetlərindən biri olmalıdır.

Modernləşmə amillərinin, onun şərtlərinin və vasitələrinin təhlilindən belə qənaətə gəlmək olar ki, aqrar sahənin modernləşdirilməsinin təşkilati-iqtisadi mexanizmini aşağıdakı aspektdə təsnifləşdirmək mümkündür:

- aqrar siyasətin institusional əhatə dairəsinin genişləndirilməsi;
- ölkənin aqrar istehsalla məşğul olan bölgələrində rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində daxili strukturların formalaşdırılması;
- kənd təsərrüfatında ekoloji təmiz məhsul istehsalının həyata keçirilməsi;
- kəndlərdə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün zəruri şəraitin yaradılması, kənd əhalisinin sahibkarlıq fəaliyyətinə marağın artırılması;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirləri ilə digər sahələrdə fəaliyyət göstərən subyektlərin gəlirləri arasındakı fərqlərin azaldılması və kənd əhalisinin gəlirlərinin stabilləşdirilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi;
- kənd təsərrüfatı istehsalının dövlət büdcəsi tərəfindən subsidiyalaşdırılması;
- kənd təsərrüfatının inkişafına istiqamətləndirilmiş innovasiya siyasətinin gücləndirilməsi;
- aqrar sığorta siyasətinin dövlət tərəfindən daim dəstəklənməsi.

Kənd təsərrüfatına dövlət yardımlarının təkmilləşdirilməsində ən mühüm vasitələrdən biri ölkənin aqrar sektorunun investisiya və biznes cəlbediciliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsidir. Bu tədbirlər ilk növbədə kənd təsərrüfatına xarici investorların cəlb edilməsi üçün mühüm stimul yarada bilər. Aqrar istehsala investisiya resurslarının cəlb edilməsi hazırda inkişafın ən mühüm vacib şərtlərindən biridir. Xarici investisiyaların hesabına kənd təsərrüfatında kapital qıtlığını aradan qaldırmaq və modernləşdirilmə istiqamətində zəruri tədbirləri həyata keçirmək mümkündür. Tədqiqatlar göstərir ki, kənd təsərrüfatının spesifik xüsusiyyətləri, o cümlədən istehsalın mövsümiliyi, gəlirlərin nisbətən aşağı səviyyədə olması, təbii-iqlim amilləri və digər bu kimi səbəblər nəzərə alındıqda xarici investorların cəlb edilməsi üçün dövlət tərəfindən zəruri tədbirlər həyata keçirilməlidir.

Modernləşmə şəraitində aqrar sahədə maliyyə-kredit münasibətlərinin təkmilləşdirilməsi və eləcə də aqrar sahədə maliyyə təminatının yaxşılaşdırılması kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan emal sənayenin bazasında iri ixrac qurumlarının yaradılmasına istiqamətlənir. Məhz belə bir şəraitdə həm qeyri-neft sektorunun sürətli inkişafına, həm də ixracın diversifikasiyasına nail olmaq mümkün olur. Kənd təsərrüfatında iri əmtəəlik təsərrüfatların yaradılması yolu ilə nəinki daxili bazarı yerli məhsullar ilə etibarlı şəkildə təmin etmək, eyni zamanda dünya bazarına rəqabətədavamlı məhsullar çıxarmaq mümkün ola bilər. Təhlil göstərir ki, bir sıra hallarda kənd təsərrüfatında iri toxumçuluq təsərrüfatlarının yaradılması bütövlükdə məhsuldarlığın səviyyəsinin yüksəldilməsinə nail olmağın başlıca ilkin şərtidir və əslində elit toxumçuluq sisteminin formalaşdırılması hesabına kənd təsərrüfatında intensiv texnologiyaları tətbiq etmək və modernləşmənin ən mühüm istiqamətini formalaşdırmaq mümkündür. Belə bir şəraitdə kənd təsərrüfatında məhsuldarlığın səviyyəsini yüksəltmək və eləcə də məhsul vahidinin maya dəyərinin aşağı salınması hesabına rəqabətədavamlı məhsulu ərzaq bazarına çıxarmaq mümkün ola bilər. Məhz bütün bunlar xüsusilə ÜTT-yə daxil olmaq ərəfəsində respublikanın kənd təsərrüfatının iqtisadi üstünlüklərinin formalaşdırılmasına gətirib çıxara bilər. Bitkiçilikdə məhsuldarlığın səviyyəsinin yüksəldilməsinə nail olunması, son nəticədə faktiki məhsuldarlıqla potensial məhsuldarlıq arasındakı kəskin fərqlərin aradan qaldırılması hesabına kənd təsərrüfatında iqtisadi inkişafın sürətləndirilməsinə səbəb ola bilər. Məhsuldarlığın yüksəldilməsi maya dəyərinin aşağı salınmasının ilkin şərtlərindən biri olub, ilk növbədə kənd təsərrüfatının rəqabətədavamlılığının yüksəldilməsində mühüm vasitə sayılır. Bütün bunlar nəticəsində kənd təsərrüfatında sürətli davamlı inkişafa nail olmaq mümkündür.

Dissertasiya işinin **nəticə** bölməsində tədqiqat zamanı əldə edilmiş edilmiş nəticələr elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyyələr yer almışdır.



Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşagıdakı məqalələri dərc edilmişdir.

1. Dayanıqlı iqtisadiyyatda aqrar sahənin modernləşdirilməsinin bəzi məsələləri. “Azərbaycan Aqrar Elmi” jurnalı, № 2, Bakı, 2011, səh.162-164

2. Qloballaşma şəraitində dayanıqlı iqtisadi inkişafın formalaşdırılmasının bəzi məsələləri. AMEA elmi əsərlər № 2, Bakı, 2011, səh. 124-129

3. Экономико-финансовые механизмы устойчивого развития аграрного сектора и модернизация. Белкоопсоюз, Учреждение Образования "Белорусский Торгово-Экономический Университет Потребительской Кооперации"(Молодежь Для Науки: Разработки И Перспективы). Гомель, 2012, ст. 92-95

4. Aqrar sahənin dayanıqlı inkişafına təsir göstərən amillər. Azərbaycan Respubliksı Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XVI Respublika Elmi Konfransının materialları. Bakı, 2012, səh. 268-271

5. Aqrar sahənin dayanıqlı inkişaf məsələləri və modernləşmə. “Azərbaycan Aqrar Elmi” jurnalı № 1, Bakı, 2012, səh. 135-137

6. Aqrar sahənin modernləşməsinin maliyyə təminatı və əsas xüsusiyyətləri. “Milli iqtisadiyyatın inkişafi və səmərəliliyinin yüksəldilməsi” mövzusunda beynlxalq elmi-praktik konfransın materialları, Bakı, 27-28 iyun 2012-ci il, səh. 555-558

7. Maliyyə münasibətlərində pul fondlarının rolu. Azərbaycan Kooperasiya Universiteti “Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafi” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları Bakı, 22 noyabr 2014-cü il, səh. 592-595

8. Dayanıqlı iqtisadiyyatda maliyyə münasibətlərində pul fondlarının rolu və maliyyə resurslarının artımını şərtləndirən amillər. Azərbaycan Kooperasiya Universiteti, “Kooperasiya” elmi-praktik jurnalı №1(36)-2015, səh.111-115

9. Aqrar sahənin modernləşməsinə və maliyyə dayanıqlılığına təsir edən amillər. “Əmək və Sosial problemlər”jurnalı №1(15), Bakı, 2015, səh.125-129

10. Управление предприятиями аграрного сектора: акцент на финансовые риски. «Формирование рыночных отношений в Украине» журнал №3 (166) Киев, 2015, ст.162-166.

**Мамедова Эльнура Бунят кызы**
**Совершенствование финансовых отношений при модернизации аграрной сферы в условиях устойчивой экономики.**


**Резюме**

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность избранной темы, характеризуется степень ее изученности, указываются основные задачи, объект и предмет исследования, научная новизна и практическая значимость работы, а также даны сведения об апробации результатов исследований и их внедрении.

Первая глава диссертационной работы посвящена теоретическим основам финансового механизма модернизации устойчивой экономики и аграрной отрасли. Здесь в основном исследованы характерные особенности и необходимость модернизации аграрной сферы в обеспечении устойчивой экономики, определены роль финансовых ресурсов и факторы, влияющие на финансовую устойчивость и модернизацию агарной сферы.

Во второй главе исследованы современное состояние и тенденции развития финансового механизма аграрной сферы, проанализированы производственно-хозяйственная деятельность аграрной сферы в условиях модернизации, а также текущее состояние финансовых отношений в этой сфере.

В третьей главе разработаны приоритетные направления совершенствования финансового механизма в аграрном секторе, определены пути ее модернизации в условиях глобализации, направления совершенствования финансово-кредитных отношений, приоритеты усиления государственной помощи аграрной сфере.

В заключительной части диссертации сформулированы выводы, предложения и рекомендации, имеющие научное и практическое значение.




**Mammadova Elnura Bunyat**
**Improvement of financial relations in modernization of agrarian field in sustainable economic conditions.**


S U M M A R Y

The given dissertation compiles introduction three chapters, conclusion and list of literature.

Introduction is based on the actuality of the chosen theme it characterizes the levels of its investigation, illustrates basic tasks and aims, the object and subject of the research, its scientific innovation, practical importance of the work and gives certain information about investigation results and their use.

First chapter of the dissertation deals with theoretical basis of financial mechanism in modernization of sustainable economics and agrarian fields. The characteristic peculiarities and necessity of modernization of agrarian field in providing the sustainable economics have been studied, factors impacting on financial sustainability and modernization of agrarian field and the role of financial resources have been determined.

The second chapter is involved in investigating modern condition and tendency in the development of financial mechanism of agrarian field it also analyzed the current state of sustainable economics formation, production economic activity of agrarian field in modernization condition and current condition of financial relations in this field as well.

In the third chapter the priorities of improvement of financial mechanism in agrarian field in globalization conditions, directions of improvement of financial-credit relations in agrarian field, priorities of surcease governmental aid in agrarian sphere have been determined.

Certain results, recommendations that have scientific and practical significance of the study have been formulated in conclusion of the dissertation work.

Kağız formatı 60x84, 1/16
Kağız ofset, çap vərəqi 1,7
sifariş № 211, tiraj 100 ədəd

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi
Gəncə şəhəri, Ozan küçəsi, 102.

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Мамедова Эльнура Бунят кызы**

# Совершенствование финансовых отношений при модернизации аграрной сферы в условиях устойчивой экономики

5312.01 – «Отраслевая экономика»

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономике

**Гянджа – 2015**